XATİRƏ ƏFŞAR

# LİDER: DAHİLƏR VƏ MİRAS

I CİLD

QANUN NƏŞRİYYATI

*“Lider – Dahilər və miras” əsəri I cild liderlik anlayışına klassik bioqrafik yanaşmadan kənar, daha dərin – tarixi, psixoloji və fəlsəfi müstəvidə yanaşan tədqiqat xarakterli bir əsərdir.*

*Kitabın əsas mərkəzində isə müasir Azərbaycan liderliyi dayanır. Müəllif bu fenomeni Prezident İlham Əliyevin liderlik modeli üzərindən araşdıraraq, onun siyasi iradəsinin, strateji qərarlarının və dövlətçilik düşüncəsinin tarixi ardıcıllıq içində necə formalaşdığını sistemli şəkildə təqdim edir.*

*Eyni zamanda, əsərdə “kollektiv yaddaş” və “kölgə şüur” anlayışları xüsusi yer tutur. Müəllif bu anlayışlar vasitəsilə bir xalqın davranış modellərinin, qorxu və reflekslərinin lider seçiminə və dövlət taleyinə necə təsir etdiyini izah edir.*

*Bu kitab bioqrafiya deyil. Bu, liderlik fenomeninin – tarix, yaddaş və iradə kəsişməsində doğan bir gücün analitik oxunuşudur.*

*“Lider – Dahilər və miras” silsiləsinin ilk cildi olaraq təqdim olunan bu əsər oxucunu təkcə hadisələri anlamağa deyil, onların arxasındakı siyasi ağlı və tarixi məntiqi dərk etməyə dəvət edir.*

*Kitabın ərsəyə gəlməsində fikir zənginliyi və tarixi analizləri ilə dəyərli töhfələrini əsirgəməyən qardaşım Orxan Pənahlıya xüsusi təşəkkürümü bildirirəm.*

# Ön söz

Azərbaycan,

Bu torpaq əsrlər boyu saysız-hesabsız talelərə şahidlik edib. Hökmdarlar dəyişib, sərhədlər dəyişib, amma bir şey dəyişməyib: bu torpağın yaddaşı.

Tarix onun üzərindən sərt keçib. Müharibələr, itkilər, bölünmələr... Hər nəsil öz payına düşən yükü daşıyıb. Hər dövr öz liderini, öz ümidini axtarıb.

Bəzən bu ümid bir sərkərdənin qılıncında, bəzən bir fikir adamının sözündə, bəzən isə sadəcə səbirdə təcəssüm edib.

Babəkin, Səttarxanın, Cavadxanın taleyində gördüyümüz o yarımçıq qalan mübarizə, əslində bir nəslin yox, bir xalqın davam edən hekayəsinə çevrilib. Çünki dövlət anlayışı bir nəfərin ömrü ilə bitmir. O, nəsildən-nəslə ötürülən məsuliyyətdir.

Bəzi miraslar torpaq və ya sərvət deyil.

Bəzi miraslar taledir.

Və o tale hər dəfə yeni bir iradə, yeni bir ağıl axtarır.

*Bu kitab həmin tarixi ardıcıllıq içində müasir Azərbaycan liderliyini anlamaq cəhdidir.*

Özünü tarixini bilən və hadisələri yalnız yaşayan deyil, dərk etməyə çalışan bir vətəndaş kimi mən bu dövrdə yaşamağı bir təsadüf deyil, məsuliyyət hesab edirəm. Çünki hər nəslə taleyin nadir anları nəsib olmur.

Mən itkilərin, qeyri-müəyyənliyin və uzun gözləntilərin içindən keçmiş bir zamanın şahidiyəm. Eyni zamanda həmin ağrıların tədricən səngidiyi, ümidin real nəticələrə çevrildiyi mərhələni də görürəm.

Əlimdə olan hadisələrə kənardan deyil, içindən baxmaq imkanı bəzən tarix kitablarından daha aydın dərs verib. Məhz buna görə deyə bilərəm ki, mən yalnız liderin ayaq səslərini eşidən deyil; onun qərarlarının nəticələrini birbaşa yaşayan nəsildənəm.

Bu müşahidələr məni bu sual üzərində düşünməyə vadar etdi: müasir Azərbaycan liderliyi hansı siyasi ağılın davamıdır və onu fərqli edən nədir? Mən bu suala cavabı Azərbaycan liderliyinə İlham Əliyev pəncərəsindən baxaraq axtarıram — onun ömür yolu ilə formalaşan siyasi iradənin, tarixi qərarların və zamanın sınağından çıxmış liderlik təcrübəsinin işığında. Bu analiz bir siyasi fiqurun portreti deyil; müasir Azərbaycanın taleyinin İlham Əliyevin ömür yolu boyunca formalaşan liderlik ağlı ilə necə istiqamət aldığının dərin və sistemli oxunuşudur — bu dövrün və bu taleyin içindən.

# I Fəsil

## Tarix kimləri xatırlayır?

*Liderlik nədir? Lider kimdir?*

*Bu suallar bəlkə də tarix dərsliklərinin ilk səhifəsini xatırladır. Daha dərindən diqqət yetirdikdə isə anlayırıq ki, onlar təkcə siyasi terminlər deyil. Bir millətin taleyi çox vaxt məhz bu anlayışların içində formalaşır. Lider yalnız vəzifə daşıyan şəxs deyil. O, bir xalqın toplanmış təcrübəsinin, mədəniyyətinin, yaddaşının və dünyagörüşünün cəmləşmiş ifadəsidir. Bu səbəbdən bir lideri anlamaq, əslində, həmin cəmiyyətin ruhunu anlamağa çalışmaq deməkdir. Çünki liderlər təsadüfən meydana çıxmır. Onlar yetişdikləri mühitin, yaşadıqları tarixin və daşıdıqları kollektiv yaddaşın nəticəsidir. Bir xalqın qorxuları, ümidləri və gözləntiləri çox vaxt bir nəfərin simasında konkret forma alır. Bu mənada liderlik sadəcə sosial anlayış deyil. O, tarixlə xalq arasında qurulan canlı bir körpüdür. Görünən fiqurun arxasında isə bütöv bir millətin hekayəsi dayanır.*

Tarix çox vaxt faktların ardıcıllığı kimi təqdim olunur: illər, hadisələr, müqavilələr, müharibələr. Lakin bir xalqın həqiqi tarixi yalnız bu xronologiyadan ibarət deyil. Görünən hadisələrin arxasında görünməyən bir qat yaşayır – yaddaş. Nəsillərin bir-birinə ötürdüyü xatirələr, itkilər, qələbələr, qorxular və ümidlər. Bəzən bir nağılda, bəzən bir xalq mahnısında, bəzən isə heç yazıya düşməyən hiss kimi. Cəmiyyətlər məhz bu görünməyən qatla formalaşır. Onlar yalnız yaşadıqlarını deyil, necə xatırladıqlarını da gələcəyə daşıyırlar.

Bu səbəbdən yaddaş fərdi deyil, kollektivdir. İnsan təkbaşına xatırlamır; o bunu toplumla vəhdət halında edir. Uşaqlıqdan eşitdiyi hekayələr, məktəbdə öyrəndiyi tarix, ailədə danışılan itkilər və zəfərlər dünyagörüşünü səssizcə formalaşdırır. Beləliklə, hər bir fərd əslində daha böyük bir yaddaşın daşıyıcısına çevrilir. Millətlər də elə bu cür yaşayır – ortaq xatirələrin üzərində. Hər yeni nəsil həmin yaddaşı yenidən dövrə və zamana uyğun olaraq şərh edir, amma ondan heç vaxt tam azad ola bilmir.

Məhz bu kollektiv yaddaş müəyyən anlarda konkret simalar yaradır. Liderlər təsadüfi şəkildə ortaya çıxmır. Onlar cəmiyyətin uzun müddət yığılıb qalmış ehtiyaclarının, gözləntilərinin və daxili enerjisinin təbii nəticəsi kimi meydana gəlirlər. Bir xalq təhlükə ilə üzləşəndə təhlükəsizlik və iradə